*Peşə təhsili və insan kapitalı. Cild 8, №4, 2025, s.98-101*

# GƏNCLƏRİN HƏRBİ İŞƏ HÖRMƏT VƏ ORDUDA XİDMƏT ETMƏYƏ HAZIR OLMAQ RUHUNDA TƏRBİYƏSİ



**Rafiq Verdiyev,**
*Azərbaycan Dövlət İqtisad Universitetinin*
*Humanitar fənlər kafedrasının baş müəllimi*
*e-mail: rafiq.verdiyev1958@mail.ru*
*https://doi.org/10.30546/2706-7858.2025.4.058*

**UOT:** 37, 355

**Xülasə.** *Məqalədə gənclərin hərbi vətənpərvərlik tərbiyəsində Azərbaycanın milli generallarının nümunəsi təsirli vasitə kimi, onların keçdiyi döyüş ənənələri ruhunda tərbiyəsi, hərbi işə hörmət və orduda xidmət etməyə hazır olmaq ruhunda tərbiyəsi, müasir dövrdə tələbə gənclərin hərbi vətənpərvərlik tərbiyəsi işinin hərbi biliklərlə əlaqələndirilməsi yolları, gənclərdə qəhrəmanlıq və vətənə sevgi hissinin aşılanması istiqamətləri, fiziki və psixoloji gərginlik şəraitində dəqiq və zirək hərəkət etmək bacarığının tərbiyə olunması, hərbi vətənpərvərlik və milli iftixar hissinin tərbiyəsi metodları izah olunur.*

***Açar sözlər:*** *Heydər Əliyevin tövsiyələri, milli generallarımızın rolu, hərbi işə hörmət, hərbi vətənpərvərlik, dövlət rəmzləri, orduda xidmət, tarixi keçmişin öyrənilməsi.*
***Key words:*** *recommendations of the Heydar Aliyev, the role of national generals, respect for military work, military patriotism, state symbols, service in the army, study of the historical past.*
***Ключевые слова:*** *рекомендации Гейдара Алиева, роль национальных полководцев, уважение к ратному труду, военный патриотизм, государственные символы, служба в армии, изучение исторического прошлого.*

Gənc nəsli biliklər sistemi ilə silahlandırmaq, onlarda elmi dünyagörüşü yaratmaq nə qədər vacibdirsə, şəxsiyyətinin mənəvi aləmini, davranış tərzini müsbət keyfiyyətlər zəminində formalaşdırmaq bir o qədər mühüm əhəmiyyət kəsb edən strateji vəzifədir. Bu gün mənəvi cəhətdən kamil, əxlaqca saf, fiziki cəhətdən gümrah vətəndaşlar tərbiyələndirmək cəmiyyətimizin demokratik təsisatlarını, özülünü, dayaqlarını möhkəmləndirmək deməkdir. Məşhur bir kəlamda deyildiyi kimi:

*Ağıllı olsa da insan anadan,*
*Elə nadandır ki, yenə də nadan.*
*Ağıl bir ürəksə, bilikdir vücud,*
*Borcundur ürəyi vücuda tən tut (M.Ş.Vazeh).*

Yəni insan nə qədər bilikli, savadlı, fiziki cəhətdən sağlam olsa da, əxlaqi-mənəvi cəhətdən yetkin deyilsə, yaşadığı cəmiyyətə və ailəsinə heç bir xeyir verə bilməz.

Müstəqillik və suverenlik qazandığımız indiki dövrdə cəmiyyətimizin həyatında mənəvi sərvətlərin rolu xeyli artmış, mənəvi təsir imkanları da genişlənmişdir. Xalqımızın müstəqillik və azadlıq yoluna qədəm qoyması gənclərin müstəqil və yaradıcı düşünmək bacarığını, fəallıq və müba-

rizliyini, fərasət və vətənpərvərliyini önə çıxarır. Gənclərdə hərbi işə hörmət və orduda xidmət etməyə təhrik edən mənəvi-etik, hüquqi-sosial təsisatları möhkəmləndirməklə, onları bacarıqlı və istedadlı nəsil kimi formalaşdırmaq təhsilimizin qarşısında duran başlıca vəzifədir.

Bu gün xalqımız Vətən torpaqlarının müdafiəsində ayıq-sayıq dayanır, öz hüquqları, azadlıqları uğrunda mübarizə aparır, soykökünü, mədəni-tarixi irsini dərindən öyrənir, iqtisadi çətinlikləri aradan qaldırmaq üçün əzmlə çalışır. Müasir gənclər, ali məktəb tələbələri (gələcək nəsli həyata hazırlayan milli kadrlar) bu mühüm vəzifələrin həyata keçirilməsinə böyük köməklik göstərə bilər, hər hansı bir faydalı, səmərəli işin öncülü ola bilərlər. Bu yolda onlara düzgün fəaliyyət proqramı, elmi-pedaqoji, nəzəri-metodik tövsiyələr, habelə optimal işləri, istiqamətləri seçmək hüququ verilməlidir. Hər bir tələbə, gənc milli generalların həyatı ilə tanış olmalı, özü üçün maraqlı işlər, məşğələlər, əməliyyat və faydalı yollar tapıb tətbiq etməyə cəlb olunmalıdır. Şübhəsiz ki, görülən işlərdə yerli xüsusiyyətlər, yaşayış şəraiti və reallıqlar nəzərə alınmalı və bütün bu məsələləri dərs və dərsdənkənar tədbirlər zamanı hərbi vətənpərvərlik məzmunu ilə zənginləşdirib "Vətən, xeyirxahlıq və ədalət uğrunda" devizi altında keçirməklə tərbiyələndiricilik keyfiyyətlərini reallaşdırmaq olar. Həmçinin bu yöndə, xüsusən Azərbaycan tarixində xüsusi yeri və mövqeyi olan milli generallarımızın qəhrəmanlıq dolu məslək və əqidə məramından pedaqoji məharətlə yeni inkişaf konsepsiyasına uyğun istifadə olunmalıdır. Çünki "hər bir xalqın tarixinə hörmət onun hərbi sərkərdələrinə, generallarına hörmətdir. Bu, Azərbaycan üçün İ.Qutqaşınlıya, Ə.Şıxlinskiyə, S.Mehmandarova və digər generallara və hərbiçilərə hörmətdir".

Ümummilli lider Heydər Əliyev Azərbaycan Gənclərinin Birinci Forumundakı çıxışında demişdir: *"Biz general Mehmandarovla, general Əliağa Şıxlinski ilə, yaxud Talışxanovlar, Bakıxanovlar, Ağalarovlar, Naxçıvanskilər nəslindən olan generallarla fəxr edirik. Biz onları böyük hörmət və ehtiram hissi ilə xatırlayırıq. Biz milli qəhrəmanlarımızla fəxr edirik".*

Hərbi vətənpərvərlik milli iftixar hissi ilə dərindən bağlıdır. Milli generalların nümunəsindən istifadə yolu ilə gənclərin hərbi işə hörmət və orduda xidmət etməyə hazır olmaq ruhunda tərbiyəsi prosesində həqiqi vətənpərvər nəsil yetişdirmək, bu zaman ölkəmizin maddi və mənəvi sərvətlərinə, uğurlarına, fiziki və zehni əmək nümayəndələrinə iftixar hissi aşılamaq vacibdir. Gənclərə, xüsusən Azərbaycan Respublikasının Dövlət rəmzləri (himni, bayrağı, gerbi və s.) barədə məlumat verilməsi, müstəqilliyimizə (18 oktyabr 1991), Respublika gününə (28 may 1918), ordumuzun yaradılmasına (26 iyun 1995) həsr olunmuş bayramların keçirilməsi bu sahədə işin mühüm istiqamətlərindəndir.

Tələbələrə milli iftixar hissinin gücləndirilməsində Azərbaycan generalları ilə əlaqədar keçirilən kütləvi tədbir və məşğələlərin xüsusi əhəmiyyəti vardır. Xüsusən Azərbaycan tarixinin tədrisi zamanı tarixi varislik prinsipi əsasında milli generallar nəslinin mübarizə yolunu gənc nəslə aşılamaq səmərəli nəticə verir. Həmin sərkərdə və generallara aid mətnlər seçilib öyrədilərkən tələbələrdə ictimai tərəqqi ideyalarına qovuşmaq, yüksək ideallara can atmaq, vətəndaşlıq şüuru formalaşdırmaq təkcə onların şüurunu deyil, habelə mənəvi-əxlaqi, vətənə bağlılıq hissini də artırmış olur. Məqsəd tələbələri Ə.Şıxlinski, S.Mehmandarov kimi generalların timsalında əsl vətənpərvər kimi tərbiyə etməkdir. Vətənpərvərlik kimi zərif, yüksək əxlaqi keyfiyyətlərə yiyələnmiş tələbə, həm də milli iftixar, qürur hissi keçirir. Axı general Ə.Şıxlinski rus artilleriyasının Allahı sayılır, general S.Mehmandarov Azərbaycan Demokratik Cümhuriyyətinin ilk hərbi naziri olub, az vaxtda 40 min nəfərlik ordu yaratmış, o vaxt ermənilərin Qarabağda başladıqları qiyamı yatırmış, erməni daşnaklarını məğlubiyyətə uğratmışdır.

Gəncləri hərbi işə hörmət və orduda xidmət etməyə hazır olmaq ruhunda tərbiyə edib, onları bu yolda kamilləşdirmək istəyinin bir cəhəti də onları təlim-tərbiyə prosesində xalqımızın qəhrəmanlıq və keçmiş döyüş ənənələrindən isifadə etməkdir. Məlumdur ki, uzun illər ali pedaqoji məktəblərdə əmək, peşəyönümünə üstünlük verilmişdir. Bunun səbəbi aydın idi. Axı imperiya, məhz manqurtlaşmış başlar, "işlək əllər" yetişdirməyə çalışırdı. Milli vətənpərvərlik nümunəsi göstərməyə qadir olan gənc nəsil əsgəri xidmətdə olarkən hərb elmini öyrənmək, hərbi texnikanı idarə etmək metodlarına yiyələnmək əvəzinə, inşaat batalyonlarında xidmət edir, qara paqonlarla doğma yurda qayıdırdılar. Ona görə də vətən-

pərvərlik tərbiyəsinin mahiyyət və məzmununa yenidən baxmaq, onun diapazonunu, maarifləndirici parametrlərini, tətbiq radiusunu müəyyənləşdirmək vacib idi.

Vətən bu gün gənclər, tələbələr üçün Azərbaycan məmləkətidir! Odur ki, gənc nəsli Vətən və onun müdafiəsi naminə formalaşdırmaq hərbi vətənpərvərlik işinin ən ümdə məqsəd və vəzifəsinə çevrilməlidir. Pedaqoji prosesin aparıcı istiqamətləri təkcə tədris prosesi ilə məhdudlaşmır, tələbələrin asudə vaxtını səmərəli təşkil etməyi, mümkün nəticələrin əldə olunmasını zəruri edir. Azərbaycan ali pedaqoji məktəblərinin bir çoxunda bu metodik imkan ümumpedaqoji yeniliklərlə, orijinal yaradıcı münasibət kredosu ilə təbliğ olunur. Bütün bunlarla yanaşı, ali pedaqoji məktəb tələbələrinin əhatə dairəsinin digər təhsil ocaqlarında keçirilən kütləvi-mədəni tədbirlər gedişində müşahidə edib, belə qənaətə gəlmək olar ki, gənc nəsildə hərbi əməyə hörmət və məhəbbət hissi, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində xidmətə hazırlanması indiki şəraitdə səmərəli iş keyfiyyətləri, tərbiyələndirici amillərin güclü təsirləri kontekstində təşkil edilib keçirilə bilər. Ayrı-ayrı dövrlərin ictimai-sosial mühitində formalaşan insanların yeni pedaqoji təsir imkanlarına qatılıb ailə, məktəb və ictimai mühit amilləri ilə bütün bu məziyyətləri yüksəltmək cəhdi həyatın öz tələbidir. Ali pedaqoji məktəblərdə dərs deyən, kütləvi-mədəni tədbirlər təşkil edən müəllim və tərbiyəçilər bu vəzifəni yerinə yetirmək üçün tələbələrə Azərbaycanın iqtisadiyyatını, iqtisadi siyasətini və onun həyata keçirilməsində ümummilli lider Heydər Əliyevin yorulmaz fəaliyyətini davam etdirən Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu sahədəki xarici və daxili siyasətini, eləcə də iqtisadiyyatın inkişafına ziyan vuran amillər barədə dolğun təsəvvürlər aşılamaq qeydinə qalmalıdırlar.

Azərbaycan xalqının keçmişi, hazırkı vəziyyəti və gələcəyi barədə biliklər aşılamaq zəminində iş apararkən, bu vəzifələrin icrası üçün aşağıdakı məzmunda metodik tövsiyələrə əməl etmək məqsədəmüvafiqdir.

Xalqın mənəvi irsi olan milli generallarımızın hərbi əməyi və döyüş şöhrəti yolunu əks etdirən salnamələrin, yazılı sənət abidələrinin qorunub saxlanılması, tarixi keçmişimizin öyrənilməsi, Qarabağ, Şərqi və Qərbi Zəngəzur, Göyçə və İrəvan mahalı ilə bağlı hadisələrin tam obyektiv öyrənilməsi, hərb tarixi, qəhrəmanlarımız, müasir sərkərdələrimiz, milli generallarımız, əsgər, zabit, admirallarımız və başqaları barədə tələbələri müvafiq biliklərlə silahlandırmaq lazımdır. Çünki bu gün yetişən Azərbaycan vətəndaşlarının yeni tarixini, keçmiş və gələcək qəhrəmanlarını müəllimlər formalaşdırır.

Yeni tariximizi keçmişin əsasında qurmaq soykökünə qaytarmanın əsasıdır. Tarixi irsimizə hörmətlə yanaşı, müasir həyatın dinamik dəyər nümunələrindən gənclərin milli və vətənpərvərlik ruhunda tərbiyə olunmasında ən qüdrətli vasitədir. Ümummilli lider Heydər Əliyev "Gənclər günü" münasibəti ilə gənclərlə görüşdəki (2 fevral 2001-ci il) nitqində söyləmişdir: "Gənclər çox şeyləri bilməlidirlər. Birinci növbədə hər bir gənc vətənpərvər olmalıdır. İndi Azərbaycanda vətənpərvərlik hər bir insanın, xüsusən, hər bir gəncin ən ümdə borcu, vəzifəsidir. Ancaq vətənpərvərlik, gərək insanın qəlbində olsun. Borc o demək deyil ki, vətənpərvərlik tələb edirsən, o da vətənpərvər olur. Yox. Mən bunu deyərkən bildirmək istəyirəm ki, bütün təhsil ocaqlarında gənclərlə məşğul olan bütün təşkilatlarda vətənpərvərlik hissinin aşılanması, vətənpərvərlik hissinin hər bir gəncin qəlbində olması üçün lazımi tədbirlər görmək lazımdır" (30; №6).

Təcrübə göstərir ki, müasir dövrdə tələbələrdə hərbi əməyə hörmət və orduda xidmətə hazır olmaq ruhunda milli generalların nümunəsindən hərbi vətənpərvərlik tərbiyəsi prosesində istifadənin forma və üsullarını, daha doğrusu, bu işin nəzəriyyəsini, metodikasını, elmi istiqamətlərini hazırlamaq ən vacib məsələ kimi qarşıda durur. Milli ləyaqət, milli şüur, milli qürur, milli iftixar hissinin aşılanması üçün elmi-publisistik söhbətlər, diskussiyalar, seminar-müşavirə və elmi-nəzəri konfranslar önəmli elmi-pedaqoji situasiyalar yaradır. Həmin şəraitin rəngarəng formalarından istifadə edən müəllim, tərbiyə işləri üzrə təşkilatçı pedaqoji tərbiyənin bu sahəsi üzrə daha əlverişli nailiyyətlər əldə etməyə müvəffəq ola bilər. Çünki özünün tarixini, mədəniyyətini bilməyən xalq milli və ümumbəşəri dəyərlərinin də sahibi ola bilməz. Çox dəyərli, zəngin tarixi keçmişi olan xalqımızın mətin övladları olan qəhrəman milli generallarımızın – Teymur Bünyadovun (33; 444), Valeh Bərşadlının (32; 366), Aslan Vəzirovun (33; 456), Murtuz Quliyevin

(34; 268), Xıdır Mustafayevin (35; 106), Mustafa Nuriyevin (36; 304), qvardiya polkovniki Məmməd Osmanovun (37; 388), Həzi Aslanovun (38; 437), Məmmədbağır Bağırovun (39; 532), müstəqillik dövründə əməli ordu quruculuğu və digər yaradıcı fəaliyyət sahələrində olan Tacəddin Mehdiyevin (uğurlu və uğursuz fəaliyyəti nəzərə alınmaqla) (41; 48), Dadaş Rzayevin (42; 38), Səfər Əbiyevin (43; 3), Zakir Həsənovun, İsmayıl Mehdiyevin, Hikmət Mirzəyevin, Polad Həşimovun, Namiq İslamzadənin, Zaur Məmmədovun, Əlihüseyin Seyidovun və digər əməli fəaliyyət nümunəsi olan Vətən övladlarının öz xalqına, dövlətinə xidmət etmək sahəsində həyati nümunəsindən Azərbaycan gəncliyinin yüksəlişində, dövlətçiliyimizin, cəmiyyətimizin tərəqqisində, insan haqlarının qorunmasında, ordu quruculuğu və Silahlı Qüvvələrinin təşəkkülündə, sərhədlərimizin toxunulmazlığının təmin olunmasında, qüdrətli Vətən və Xalq Birliyinin təmin olunmasında və nəhayət, bütün demokratik prinsiplərin bərqərar olunmasında gənc nəslə kömək edə biləcək örnək mənbəyi, təsirli pedaqoji vasitə kimi istifadə etmək lazımdır.

**Nəticə.** Bu gün ali pedaqoji məktəblərdə tədris zamanı gənclərə hərbi vətənpərvərlik hislərini aşılamaqda müəllimlər daha çox məsuliyyət daşıyırlar. Belə müəllimlərin sayəsində vətənə məhəbbət, soykökünə bağlılıq, orduda xidmətə hazır olmaq ruhunda tərbiyə olunan yeni nəsil yetişir. Biz şanlı tariximizlə, bu tarixi bizə yaşadan milli generallarımızla həmişə fəxr edirik. Sərkərdələrimizin şəxsi nümunələri bu gün də hərbi sahədə çalışan gənclərimizə bir örnəkdir.

## İstifadə edilmiş ədəbiyyat


1. Abbasov Ə. Azərbaycanın Diviziya komandiri. “Elm və həyat” jurnalı, №4, 1982.
2. Balayev M. Vətəni qorumaq şərəfi. “Azərbaycan müəllimi” qəzeti, 11 sentyabr 1981.
3. Əliyev H.Ə. Müstəqil dövlətimizin gələcəyini bu günün gəncləri qorumalıdırlar. “Azərbaycan” qəzeti, 25 sentyabr 1993.
4. Qəhrəmanov S. Tələbə gənclərdə milli iftixar hissinin tərbiyəsi. “Azərbaycan məktəbi” jurnalı, №2, 1997.
5. Muxtarova N. Məktəblilərdə milli şüurun və milli ləyaqətin tərbiyə edilməsi. “Gənclik” nəşriyyatı, Bakı, 1993.
6. “Hərbi bilik” jurnalı, №1, yanvar-fevral 2001.
7. Azərbaycan Sovet Ensiklopediyası. II cild, Bakı, “ASEBR” nəşriyyatı, 1997.
8. Süleymanov M. Azərbaycan ordusu (1918–1920). Bakı, “Hərbi” nəşriyyat, 1998.
9. Süleymanov Ə. Burada vətənpərvərlər yetişir. “Azərbaycan müəllimi” qəzeti, 11 sentyabr 1981.


**R.Verdiyev**

## Education of young people in the spirit of respect for military service and readiness to serve in the army

**Abstract**

The article comments on the example of the national generals of Azerbaijan as an effective tool in the military-patriotic education of young people, their education in the spirit of the fighting traditions passed by our national generals, their education in the spirit of respect for military work and readiness to serve in the army, the ways of connecting the military-patriotic education of young students with military knowledge in modern times, the directions of instilling a sense of heroism and love for the Motherland in young people, the education of the ability to act accurately and intelligently in conditions of physical and psychological stress, and the methods of educating a sense of military-patriotism and national pride.

**Р.Вердиев**

## Воспитание молодежи в духе уважения к воинской службе и готовности к службе в армии

**Аннотация**

В статье рассматривается пример азербайджанских генералов как действенный инструмент в военно-патриотическом воспитании молодежи, их воспитание в духе боевых традиций, переданных нашими национальными генералами, воспитание в духе уважения к ратному труду и готовности к службе в армии, пути связи военно-патриотического воспитания учащейся молодежи с военными знаниями в современных условиях, направ-ления воспитания у молодежи чувства героизма и любви к Родине, воспитание способности действовать точно и разумно в условиях физических и психологических нагрузок, методы воспитания чувства военно-патриотизма и национальной гордости.